## Hüquq məsləhətxanamız

*Samirə Musayeva,*

*Azərbaycan Respublikası Vergilər Nazirliyinin Hüquq idarəsinin rəisi vergi ödəyicilərinin suallarına cavab verir.*

## Hədiyyənin vergiyə cəlb olunması

İşəgötürənin öz işçisinə malı, işi və ya xidməti hədiyyə kimi verdiyi halda, bu hədiyyə vergiyə hansı qaydada cəlb olunur?

Vergi Məcəlləsinin 97.3-cü maddəsinə əsasən, fiziki şəxsin gəlirlərinə aşağıdakılar aiddir:

- muzdlu işlə əlaqədar əldə edilən gəlir;
- muzdlu işə aid olmayan fəaliyyətdən əldə edilən gəlir;
- vergilərdən azad edilən gəlirlərdən başqa bütün digər gəlirlər.

Vergi Məcəlləsinin 98.1-ci maddəsində qeyd edilmişdir ki, fiziki şəxs tərəfindən muzdlu işlə əlaqədar alınan gəlir - əməkhaqqı, bu işdən alınan hər hansı ödəmə və ya fayda, o cümlədən əvvəlki iş yerindən, yaxud gələcək muzdlu işdən alınan gəlirdir.

Vergi Məcəlləsinin 98.2.2-ci maddəsinə əsasən, bu Məcəllənin 98.1-ci maddəsinin məqsədləri üçün işəgötürənin öz işçisinə malı, işi və ya xidməti təqdim etdiyi, yaxud hədiyyə verdiyi halda gəlirin məbləği - bu cür malların, işlərin və xidmətlərin bazar qiyməti ilə dəyərindən işçinin əldə etdiyi həmin gəlirə görə ödədiyi hər hansı xərc çıxıldıqdan sonra qalan məbləğə bərabərdir.

Vergi Məcəlləsinin 98.4-cü maddəsində qeyd edilmişdir ki, bu Məcəllənin 98.2-ci maddəsində göstərilən məbləğlərə və xərclərə aksizlər, əlavə dəyər vergisi və qiymətləndirilən əqdlə əlaqədar işəgötürənin ödəməli olduğu hər hansı digər vergi daxildir.

Vergi Məcəlləsinin 98.1-ci maddəsi əsasən, işəgötürənin öz işçisinə malı, işi və ya xidməti hədiyyə kimi verməsi fiziki şəxsin muzdlu işlə əlaqədar əldə edilən gəliri hesab olunduğu üçün Vergi Məcəlləsinin 101.1-ci maddəsinə müvafiq olaraq gəlir vergisinə cəlb olunur. Belə ki, fiziki şəxsin muzdlu işlə əlaqədar əldə etdiyi aylıq gəliri 2000 manatadək olduqda 14 faiz, 2000 manatdan çox olduqda 280 manat + 2000 manatdan çox olan məbləğin 30 faizi həcmində gəlir vergisi hesablanır.

İki və ya daha çox yerdə muzdla işləyən fiziki şəxslərin gəlirlərindən gəlir vergisi hər bir iş yerində ödənilən məbləğdən ayrıca hesablanır və dövlət büdcəsinə ödənilir.